# "Qarabağ qaziləri və şəhid ailələri Sizi özlərinin ən böyük himayədarı və dostu bilirlər"

## Vətəndaşlar Prezident İlham Əliyevə böyük inam və ehtiramlarını bildirirlər



***Heç kimə sirr deyil ki, digər ölkələrlə müqayisədə Azərbaycanda vaxtında qəbul edilmiş genişmiqyaslı tədbirlər sayəsində koronavirusla bağlı vəziyyətin nəzarət altına alınması soydaşlarımız tərəfindən böyük məmnuniyyətlə qarşılanır. Bununla əlaqədar Prezident İlham Əliyevə ünvanlanan məktublarda vətəndaşlarımız dövlət başçısının Azərbaycanın daha da güclənməsinə yönəlmiş genişmiqyaslı addımlarını tam dəstəklədiklərini vurğulayır və birgə səylər nəticəsində yeni əsrin bəlası üzərində inamlı qələbə qazanılacağına əminlik ifadə olunur.***

Dünyada yeni növ koronavirus (COVİD-19) pandemiyası ilə mübarizə davam edir. Demək olar, bütün ölkələrdə həyatın normal axara düşməsi üçün bir sıra məhdudlaşdırıcı qadağalar hələ də qüvvədə qalır. Azərbaycanda da virusla mübarizə davam etdirilir, ölkəmizdə yoluxma hallarının qarşısını almaq üçün qabaqlayıcı addımlar atılır, pandemiyaya qarşı mübarizə və virusun insandan-insana ötürülməsi imkanlarının qarşısını almaq üzrə bir sıra mühüm qərarlar qəbul olunur. Bütün bu addımlar, təbii ki, ölkənin pandemiyadan az itkilərlə çıxmasına şərait yaradır, eləcə də vətəndaşların dövlətə və onun rəhbərinə olan böyük etimadını daha da artırır. Dövlət başçısına ünvanlanan məktublarda da vətəndaşlarımız vurğulayırlar ki, bu gün bəşəriyyətin böyük sınaqla üzləşdiyi çətin dövrdə, koronavirus pandemiyasının tüğyan etdiyi bir vaxtda güclü mübarizə aparılmasına baxmayaraq, dünyanın bir sıra yerlərində, o cümlədən inkişaf etmiş Avropa ölkələrində, Amerika qitəsi ölkələrində hər gün yüzlərlə insan bu dəhşətli xəstəliyin qurbanına çevrilir. **Bununla bağlı Ağdam rayonu, 689 saylı qəsəbə sakini Nicat Əhmədov yazır:** "Koronavirus infeksiyasının qlobal təhlükəyə çevrilməyə başladığı ilk gündən etibarən Sizin qəbul etdiyiniz qərarlar və qabaqlayıcı tədbirlər pandemiyanın ölkəmizdə geniş yayılaraq kütləvi insan ölümünə səbəb olmasının qarşısını aldı. Sizin çevik və yüksək idarəetmə bacarığınız sayəsində infeksiyaya yoluxmaların sayı aşağı həddə saxlanılmaqdadır".

Prezident İlham Əliyevə göndərilən minnətdarlıq məktublarında soydaşlarımız pandemiyanın qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Azərbaycan dövlətinin çevik və məqsədyönlü siyasətin aparılması, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq qabaqlayıcı addımların atılması, yoluxucu xəstəliklə bağlı vəziyyətin nəzarət altında saxlanılması yüksək qiymətləndirilir, ölkə başçısına minnətdarlıq və tam dəstək ifadə olunur. **Məsələn, Salyan rayonu, Arbatan kənd sakinləri Sevinc Ələkbərli, Şükufə Babayeva, Əfruzə İsayeva, İradə Rzayeva, Vüsalə Abuşova yazırlar:** "Bu gün ölkəmiz Sizin qabaqlayıcı tədbirləriniz və məqsədyönlü addımlarınız sayəsində dünyanın bir çox ölkələri ilə müqayisədə koronavirusa qarşı az itki ilə mübarizə aparmaqdadır. Bu ağır gündə aztəminatlı ailələrə göstərdiyiniz diqqət, onlara göndərdiyiniz maddi və ərzaq yardımları və ölkənin birinci xanımı Mehriban Əliyevanın da dəstəyi bir daha sübut etdi ki, Siz hər zaman xalqın yanındasınız". Bu proseslərin gedişi ərəfəsində bütün ölkədə olduğu kimi, Salyan rayonunda da tikinti-quruculuq, abadlıq işlərinin aparıldığını bildirən məktub müəllifləri əlavə edirlər ki, rayonda illərdir təmirsiz olan doğum evində aparılan abadlıq işləri bizim üçün böyük bir hədiyyə oldu: "Yaşadığımız Arbatan kəndinə Sizin göstərişiniz əsasında çox gözəl yeni asfalt yol çəkilməsi rayona gediş-gəlişimizi asanlaşdırıb. Bizim üçün ən sevindirici hal isə 1964-cü ildə tikilib istifadəyə verilən kənd məktəbinin Heydər Əliyev Fondu tərəfindən əsaslı təmirinə başlanılmasıdır". Arbatan kənd sakinləri görülən işlərə görə ölkə başçısına təşəkkür edir və çətin günlərdə Prezident İlham Əliyevin xalqa diqqət və qayğı göstərdiyinin əyani şahidi olduqlarını vurğulayırlar: "Sizə bütün kənd sakinləri adından minnətdarlığımızı çatdırırıq. Sizə sevgimiz və hörmətimiz sonsuzdur. Allah Sizi və ailənizi daim qorusun, ucaltsın, ölkəmizi çiçəkləndirsin, uğurlarınızı əbədi etsin. Biz Sizinlə birlikdə güclüyük".

Əlbəttə, belə həssas dövrdə hakimiyyətə xalqın dəstək verməsi koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır. **Saatlı rayonu, Əhmədbəyli kənd sakini, ikinci qrup əlil Bayraməli Əliyev yazır:** "Mən həmişə Sizin fəaliyyətinizi dəstəkləyən bir Azərbaycan vətəndaşıyam. Siz bütün fəaliyyətinizi vətəndaşların rifahının yaxşılaşdırılmasına həsr etmisiniz. COVID-19 pandemiyasına qarşı səmərəli və düzgün siyasətiniz bunu bir daha sübut etdi". Məktub müəllifi hazırda dünyanı iqtisadi böhran bürüdüyünü vurğulayır, ancaq buna baxmayaraq ölkə başçısının müdrik siyasəti ilə Azərbaycanın bu bəladan qorunduğunu bildirir: "Bu çətin vəziyyətdə Siz regionlara səfərlər edir, xalqın firavan yaşayışı üçün yeni obyektlər açır, videokonfranslar və videogörüşlər vasitəsilə mühüm məsələləri müzakirə edir, öz münasibətinizi bildirirsiniz. Böyük siyasətiniz, yüksək zəkanız və uzaqgörənliyiniz sayəsində buna nail olursunuz". B.Əliyev xalqa göstərdiyi bu böyük və məsuliyyətli əməyinə görə Prezident İlham Əliyevə öz adından və ailəsi adından təşəkkür edir.

**Bakı şəhəri, Pirallahı rayon sakini Xatirə Əliyeva ölkə başçısının şəhid ailələrinə, Qarabağ qazilərinə, məcburi köçkünlərə göstərilən diqqət və qayğısının onların həyatında misilsiz rol oynadığını bildirir:** "Sizin bu qayğıkeş münasibətinizdən digərləri ibrət götürürlər. Qarşılaşdığımız çətinliklərin aradan qaldırılması ilə əlaqədar dövlət qurumlarına ünvanladığımız müraciətlərə həssaslıqla yanaşılır, lazımi tədbirlər görülür". X.Əliyeva məktubunu bu sözlərlə yekunlaşdırır: "Cənab Prezident, bütün bunlara görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən Vətən uğrunda bir oğul itirsəm də, əvəzində minlərlə oğul qazanmışam və bununla fəxr edirəm. Başda Siz olmaqla, şəhid ruhuna və şəhid anasına böyük hörmət və ehtiram bəsləyən hər kəsə alqış və dua edirəm. Ömrünüz uzun olsun".

Azərbaycanda koronavirusa qarşı uğurla mübarizə aparılır və ölkəmizin COVID-19 ilə mücadiləsi bir çox ölkələrə örnək göstərilir. Təbii ki, belə uğurlu mübarizənin əsas səbəbi Prezident İlham Əliyevin təhlükə anından vəziyyəti tam nəzarətə götürməsi və həyata keçirilmiş genişmiqyaslı tədbirlər sayəsində xəstəliyin geniş yayılaraq ağır nəticələrə yol verilməməsidir. Soydaşlarımız dövlət başçısına ünvanladıqları məktublarda dövlət başçısının hədəfəyönümlü addımlarını alqışlayaraq Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə edirlər. **Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbə sakini Xırda Rzayeva yazır:** "Siz həmişə biz yaşlıları düşünürsünüz. Yaşayış şəraitimiz yaxşılaşsın deyə təqaüdlərimizi artırırsınız. Bu bizi sevindirir. Buna görə Sizə təşəkkür edirəm. Çox sağ olun. Sizi bir Prezident, bir övlad kimi sevirik. Sizə arxalanırıq, Sizə güvənirik. Ümummilli liderimiz Heydər Əliyevin yolunu layiqincə davam etdirirsiniz". Prezidentin mütəmadi olaraq şəhid ailələrinə, Qarabağ qazilərinə, aztəminatlı kasıb ailələrə humanist sərəncamları ilə xoşbəxtlik bəxş etdiyini vurğulayan X.Rzayeva əlavə edir ki, mənzillə təmin edilməsinin, bir şəhid anasının sevindirilməsinin ən azından şəhidlərin ruhu qarşısında böyük ehtiram olduğunu vurğulayır: "Bu sevinc ailəmiz üçün necə bir şirin töhfədir, bir Allah bilir. Mənim Sizə təşəkkürüm sonsuzdur. Allah Sizi qorusun".

**Quba rayonu, Çartəpə kənd sakini, 82 yaşlı təqaüdçü Seyidbala Nəcəfov məktubunda yazır ki, yaşının bu çağında doğma kəndini abad, həyatını firavan görmək çox xoşuna gəlir:** "Həyat eşqim artır, ilhamlanıram. Kəndimizdə son illər ərzində xeyli təmir-tikinti işləri görülmüşdür. Elə rayon mərkəzindən kəndə qədər uzanan asfalt yol nəyə desəniz dəyər. Əvvəllər rayon mərkəzinə bir saata güc-bəla ilə çatırdıq. İndi isə bunun üçün cəmi 15 dəqiqə kifayət edir. Qonşu rayon olan Qusara da gediş-gəlişimiz asanlaşmışdır". Hazırda kəndə içməli su xəttinin çəkilməsi istiqamətində işlərin getdiyini qeyd edən S.Nəcəfov ölkə başçısına dərin təşəkkürünü bildirir. Bakı şəhəri, Nizami rayon sakini Yusif Hüseynov da böyük diqqət və qayğı göstərdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirir: "Mən Qarabağ müharibəsi veteranıyam. Həm Qarabağ müharibəsi veteranları və əlillərinə, həm də şəhid ailələrinə göstərilən qayğıya, onların problemlərinin həllinə görə Sizə və Mehriban xanıma bu kateqoriyalardan olan bütün insanlar adından təşəkkürümü bildirirəm". Ölkə başçısının fərman və sərəncamlarından irəli gələn tapşırıqların icrası nəticəsində həyat şəraitinin yaxşılaşdığını, narahatlıq doğuran bir sıra məsələlərin öz həllini tapdığını bildirən **Y.Hüseynov əlavə edir ki,** Qarabağ qaziləri və şəhid ailələri Prezident İlham Əliyevi özlərinin ən böyük himayədarı və dostu bilirlər.

***Hazırladı:***
***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***